

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 112 (23.524)

*15 iyul 2020-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Azərbaycan Respublikası təltiflərinin və gənc istedadlara təqaüdlərin təqdimatı olub





1969-cu il iyulun 14-də ümummilli liderimiz Heydər Əliyevin respublika rəhbəri seçilməsi ilə Azərbaycanda bütün sahələrdə böyük uğurlar qazanılmış, ölkənin gələcək müstəqilliyinin təməli qoyulmuşdur. Bu gün Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirilməsinin nəticəsidir ki, gündən-günə inkişaf edən, tərəqqiyə qovuşan Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf təmin edilmiş, dövlət-xalq birliyi və sabitlik yaranmışdır.

İyulun 14-də – ulu öndərin ölkəmizə rəhbər seçilməsinin 51-ci ildönümündə Azərbaycan Respublikasının medal və fəxri adlarının, eləcə də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin gənc istedadlara xüsusi aylıq təqaüdünün təqdimat mərasimi keçirilmişdir.

Əvvəlcə Tovuz rayonu ərazisində işğalçı Ermənistanın təxribatı nəticəsində şəhid olmuş əsgər və zabitlərimizin əziz xatirəsi yad edilmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: 14 iyul Azərbaycan tarixində əlamətdar gündür. Ümummilli liderimiz Heydər Əliyevin 1969-cu ilin 14 iyulunda Azərbaycanda siyasi hakimiyyətə gəlişi ilə ölkəmizdə hərtərəfli inkişafın əsası qoyulmuşdur. Həmin dövrdə Azərbaycan ittifaq respublikaları içərisində ən axırıncı yerdə olduğu halda, qısa müddət ərzində Sovetlər Birliyinin inkişaf etmiş respublikasına çevrilmişdir.

Ali Məclisin Sədri demişdir: Ötən əsrin 90-cı illərinin əvvəlində Heydər Əliyevin siyasətdən kənarlaşması nəticəsində Azərbaycan faciələrlə üzləşdi. Lakin 1993-cü ildə ümummilli liderimizin xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycanı sabitliyə, inkişaf və tərəqqiyə qovuşdurdu. Hazırda bu yolun uğurla davam etdirilməsinin nəticəsidir ki, ölkəmizdə sabitlik və inkişaf vardır. Azərbaycan inkişaf etmiş dünya dövlətləri sırasında öz layiqli yerini tutub. Ölkəmizin inkişafında xidməti olanların, fərqlənənlərin əməyi isə dövlətimiz tərəfindən qiymətləndirilir. Bu gün təltif olunanlar, dövlətimizin ali mükafatlarına layiq görülənlər də çalışdıqları sahələrdə əməkləri ilə seçilən, fərqlənən şəxslərdir.

Ali Məclisin Sədri təltif olunanları təbrik etmiş və onlara gələcək fəaliyyətlərində uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri Azərbaycan Respublikası medallarının və fəxri adlarının döş nişanlarını və vəsiqələrini təqdim etmişdir.

Təltif olunanlardan Yəhya Allahverdiyev, Nəsimi Abbaslı, Mayis Əliyev, Qurban Cəfərov, Dünyamalı Əkbərov, Həsən Hacıyev minnətdarlıq edərək demişlər ki, əlamətdar tarixi gündə təltif olunmaq ikiqat şərəfdir. Bu gün Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası inkişaf edir, tərəqqiyə qovuşur. Bütün bunların təməlində isə ulu öndər Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirilməsi dayanır. Muxtar respublikada geniş quruculuq işləri aparılır, bütün yaşayış məntəqələri müasirləşdirilir, insanlar rahat yaşayırlar. Bu inkişaf hər bir sakini doğma torpağa daha sıx tellərlə bağlayır. Təltif olunanlar bundan sonra da ölkəmizin inkişafı və tərəqqisi yolunda səylə çalışacaqlarına söz vermişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 9 iyul tarixli Sərəncamı ilə təhsil sahəsi üzrə Naxçıvan şəhər 15 nömrəli tam orta məktəbin şagirdi İnci Nəsirovanın və idman sahəsi üzrə Babək rayon Vayxır kənd tam orta məktəbinin şagirdi Vüsal Seyidovun adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na yazılmış və onlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülmüşlər.

Ali Məclisin Sədri təqaüd kartlarını gənc istedadlara təqdim etmiş, onlarla xatirə şəkli çəkdirmişdir.

Təqaüdçü gənc İnci Nəsirova demişdir: "Əldə etdiyim uğurların əsasında Ali Məclis Sədrinin şagirdlərə yaratdığı yüksək səviyyəli təhsil şəraiti dayanır. İstedad və bacarıqlarımızın üzə çıxarılmasında göstərilən xüsusi diqqət və qayğıya görə minnətdarlığımı bildirirəm. Söz verirəm ki, bundan sonrakı təhsil həyatımda daha da səylə çalışacaq və göstərilən etimadı doğruldacağam".

Təqaüdçü gənc Vüsal Seyidov demişdir: "Muxtar respublikada təhsil ilə yanaşı, idmana da xüsusi qayğı göstərilir. Mən muxtar respublika, ölkə və xarici yarışlarda iştirak etmiş, uğurlar qazanmışam. Buna görə də özüm və valideynlərim adından minnətdarlığımı bildirirəm. Çalışacağam ki, bundan sonra da etimadı doğruldaraq bütün yarışlarda yüksək nəticələr qazanım".

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## AMEA Naxçıvan Bölməsində uğurlu nəticələr əldə edilib

***AMEA Naxçıvan Bölməsinin cari ilin ilk yarım ilindəki elmi və elmi-təşkilati fəaliyyətinə həsr olunmuş onlayn iclas keçirilib.***

Tədbiri bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq elmi-tədqiqat müəssisələrində müvafiq istiqamətlər üzrə aparılan tədqiqatlardan, eləcə də elmi-təşkilati işlərdən danışıb.

Sonra Elm və təhsil şöbəsinin müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Orxan Bağırov cari ilin birinci yarısında bölmənin tərkibindəki elmi qurumlarda aparılan elmi-tədqiqat işlərinin nəticələrini diqqətə çatdırıb. O bildirib ki, təsdiq edilmiş planauyğun olaraq 6 elmi istiqamətdə 6 problemi əhatə edən 38 işin 102 mərhələdə yerinə yetirilməsi nəzərdə tutulub. Hesabat dövründə araşdırmalar 23 şöbə, 9 laboratoriya, 1 elmi-tədqiqat qrupunda yerinə yetirilib.

Qeyd olunub ki, tədqiqat dövründə bölmə əməkdaşlarının 7 monoqrafiyası, 5 kitabı, 1 metodik vəsaiti, 223 elmi məqaləsi, 121 konfrans materialı, 3 tezisi olmaqla, ümumilikdə, 360 elmi əsəri çap olunub, bir xəritə tərtib edilib. Akademiya əməkdaşlarının əsərlərindən 2 monoqrafiya, 1 kitab, 52 məqalə, 47 konfrans materialı xaricdə nəşr olunub. Məqalələrin 3-ü Clarivate Analytics-də (Thomson Reuters), 10-u impakt faktorlu jurnallarda çapdan çıxıb. Elmi məqalələrin 213-ü beynəlxalq nüfuzlu elmi jurnallarda işıq üzü görüb.

Bu dövrdə bölmədə "Elmi əsərlər" jurnalının iki, "Axtarışlar" jurnalının bir nömrəsi çapdan çıxıb, ikinci nömrəsi isə çapa hazırlanıb.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən "İlandağ" geoparkının yaradılması ilə əlaqədar AMEA Naxçıvan Bölməsi, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti və Naxçıvan Dövlət Universitetinin mütəxəssislərindən ibarət yaradılan işçi qrupu tərəfindən layihə çərçivəsində geoparkın yerləşəcəyi ərazinin kompleks qiymətləndirilməsi və ətraflı geoloji-geomorfoloji təsviri istiqamətində bir sıra işlər görülüb. Diqqətə çatdırılıb ki, Babək, Culfa və Ordubad rayonları ərazisində 1700 kvadratkilometr sahəni əhatə edən "İlandağ" geoparkının layihələndirilən ərazisinin xəritəsi, bu ərazidə yerləşən tarix-mədəniyyət və arxeoloji abidələrin siyahısı, ətraflı təsvirləri verilib, pasport qeydiyyat kartları hazırlanıb.

Həmçinin bölmə əməkdaşları açıq dünya ensiklopediyası olan vikipediyada 12 yeni məqalə, 10 yeni şablon yaradıb və 40-dan çox məqalə üzərində redaktə işləri aparıblar. Bundan əlavə, bölmədə yerinə yetirilən 2 beynəlxalq səviyyəli qrant layihəsinin icrası davam etdirilir.

Əməkdaşların muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri üçün interaktiv açıq dərslərdə məruzə ilə çıxış etdiklərini diqqətə çatdıran Orxan Bağırov vurğulayıb ki, Naxçıvan Dövlət Universitetinin hamiliyə verilmiş 5 ixtisası üzrə təhsil alan tələbələrinin iştirakı ilə bölmənin elmi-tədqiqat müəssisələrində müvafiq layihələr çərçivəsində tədqiqatlar, seminarlar, dəyirmi masalar, açıq dərslər, laboratoriya məşğələləri və sair keçirilib.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi ilə birgə həyata keçirilən "Sabahın tədqiqatçıları" layihəsi çərçivəsində Naxçıvan şəhərinin ümumtəhsil məktəblərinin 50 şagirdi bölmə alimləri tərəfindən fərdi və kollektiv şəkildə tədqiqatlara cəlb edilib və uğurlu nəticələr əldə olunub. Belə ki, bölmənin 6 əməkdaşının rəhbərliyi ilə 10 şagird müxtəlif layihələrdə iştirak edib və əldə etdikləri nailiyyətlərə görə diplom və medallar qazanıblar.

Vurğulanıb ki, bu dövrdə 20-dən çox elm və təhsil mərkəzi, bir çox ölkələrin alimləri ilə sıx elmi əlaqələr qurulub, səmərəli əməkdaşlıq edilib. Bölmənin əməkdaşları respublikada və xaricdə keçirilən 12 beynəlxalq tədbirdə məruzələrlə çıxış ediblər.

Tədbirdə Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli, Təbii Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Tofiq Əliyev, Əlyazmalar Fondunun direktoru, filologiya üzrə elmlər doktoru Fərman Xəlilov, Bölmənin Batabat Astrofizika Rəsədxanasının direktoru, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Qulu Həziyev və Bioresurslar İnstitutunun elmi işlər üzrə direktor müavini, biologiya üzrə elmlər doktoru İsmayıl Məmmədov çıxış edərək elmi göstəriciləri qənaətbəxş hesab ediblər.

Sonra bölmədə il ərzində həyata keçirilməsi planlaşdırılan məsələlər müzakirə edilib.

***AMEA Naxçıvan Bölməsinin Beynəlxalq əlaqələr və informasiya şöbəsi***

***Hər bir ölkənin nüfuzu iqtisadi, siyasi, elmi potensialı ilə yanaşı, həm də onun ordusunun qüdrəti ilə ölçülür. Ordu isə o zaman qüdrətli olur ki, onun əsgəri vətənpərvər olsun, Vətən üçün, xalq üçün istənilən təhdid və təhlükəyə layiqli cavab versin. Azərbaycan Ordusu da tarixin ən çətin dövrlərində yaranaraq böyük bir inkişaf yolu keçib, ölkəmizin təhlükəsizliyinin qarantına çevrilib.***

# Ordumuzun Vətən torpaqlarını azad edəcəyi gün uzaqda deyil



İlk Silahlı Qüvvələrimiz 1918-ci ildə yaransa da, məlum ictimai-siyasi proseslərə görə uzunömürlü olmayıb, yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin böyük xidmətləri nəticəsində ötən əsrin 90-cı illərində yenidən formalaşdırılıb. Məhz görkəmli dövlət xadimi 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçiləndən sonra muxtar respublikanın erməni təcavüzündən müdafiəsi üçün tarixi qərar qəbul edilib, ilk milli ordu hissələri təşkil olunub. 1993-cü ildə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda Silahlı Qüvvələrin təkmilləşməsi prosesi yeni mərhələyə qədəm qoyub, ordu quruculuğu sahəsində mühüm addımlar atılıb. Münaqişə dövründə yaranmış ordumuz ötən dövrdə təkcə ölkəmizin ərazi bütövlüyü uğrunda deyil, bütün dünyada sülhün qorunmasına öz töhfəsini verməkdədir. Belə ki, 1994-cü ildə Azərbaycan Respublikası NATO-nun "Sülh Naminə Tərəfdaşlıq Proqramı"na qoşulduqdan sonra Silahlı Qüvvələrimizin birləşmələri bu günədək müxtəlif münaqişə zonalarında sülhməramlı qismində çıxış etməkdədirlər.

Ordu quruculuğu işi Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Muxtar respublikanın təhlükəsizliyinin hər zaman ölkəmiz üçün prioritet olduğunu bildirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən Əlahiddə Ümumqoşun Ordunun yaradılması Naxçıvanın müdafiə potensialını dəfələrlə artırmışdır. Ötən dövrdə ordunun maddi-texniki bazası təkmilləşdirilmiş, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılmış, şəxsi heyətin döyüş ruhu yüksəldilmişdir. Təkcə bu ilin ötən dövründə Sədərək rayonunun Heydərabad qəsəbəsindəki əsgəri-yaşayış kompleksi yenidən qurularaq istifadəyə verilmiş, Naxçıvan şəhərində Əlahiddə Ümumqoşun Ordunun müasir Mərkəzi Hərbi Xəstəxanasının, Naxçıvan Təlim Mərkəzində 3 mərtəbəli əsgəri-məişət kompleksinin, yeni qərargah binası və 2 yataqxananın, hərbi zavodun, hərbi hava qüvvələri üçün yeni hərbi hissənin tikintisi və Şahbuz şəhərində yerləşən hərbi hissənin əsgəri-məişət kompleksində əsaslı təmir işləri davam etdirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tez-tez sərhəd bölgələrindəki hərbi hissələrdə olması, xidmətin vəziyyəti ilə maraqlanması şəxsi heyətin vətənpərvərlik hisslərinin daha da güclənməsinə səbəb olmuşdur. Bütün bunlarla yanaşı, Silahlı Qüvvələrimizin muxtar respublikada yerləşən hərbi birləşmələrinin hər il planauyğun olaraq taktiki təlimlərə cəlb edilməsi də ordumuzun döyüş hazırlığının yüksəldilməsinə öz töhfəsini vermişdir. Ötən ilin iyun ayında Əlahiddə Ümumqoşun Ordunun və Naxçıvan Muxtar Respublikasının güc strukturlarının, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələri bölmələrinin birgə döyüş atışlı "Sarsılmaz qardaşlıq – 2019" taktiki təlimi isə öz möhtəşəmliyi ilə yaddaşlara yazılmışdır. Türkiyə və Azərbaycan Silahlı Qüvvələri rəhbərlərinin iştirak etdiyi, 5 min nəfərədək şəxsi heyətin, 200-dən artıq tank və digər zirehli texnika, 180-ə yaxın müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 21 təyyarə, helikopter, pilotsuz uçuş aparatı və silahlanmaya yeni daxil edilmiş müxtəlif növ müasir silah və texnikaların cəlb olunduğu bu təlim düşmənlərimizə əsl gözdağı oldu. Təlimdə qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsi bir daha əminlik yaratdı ki, şəxsi heyətdə yüksək döyüş hazırlığı vardır. Təsadüfi deyil ki, Əlahiddə Ümumqoşun Ordu 2017 və 2018-ci illərdə döyüş və ictimai-siyasi hazırlıqda əldə olunmuş nailiyyətlərə görə də Azərbaycan Respublikası Silahlı Qüvvələri üzrə birinci yerə layiq görülmüşdür.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Hər bir dövlətin və cəmiyyətin həyatında ordu mühüm rol oynayır. Ordu müstəqillik rəmzidir. Xalqın əmin-amanlıqda yaşaması, dövlətin isə müstəqil olması üçün onun güclü, öz dövrünün tələblərinə cavab verən ordusu olmalıdır".*** Təbii ki, ordumuzun hərtərəfli inkişafı, yüksək döyüş hazırlığı, o cümlədən hərbi arsenalın dünyanın ən müasir silah-sursatla təchiz edilməsi düşmənlərimizin qorxusunu daha da artırmışdır. 2018-ci ilin mayında Əlahiddə Ümumqoşun Ordu tərəfindən Şərur rayonunun 26 il işğal altında qalan Günnüt kəndinin azad edilməsi və bu istiqamətdə strateji yüksəkliklərə nəzarətin ələ alınması bu gücü əyani olaraq ortaya qoymuşdur.

Bəli, Azərbaycan Ordusu istənilən vaxt işğal altında olan ərazilərimizi azad etməyə qadirdir. Böyük səbir və dözüm nümayiş etdirən Azərbaycan hər zaman Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll olunmasını istəyib. Münaqişənin həlli ilə bağlı beynəlxalq hüququn bütün prinsiplərinə əməl edən Azərbaycan bu imkanlardan sonadək yararlanmaq istəyini ortaya qoysa da, təəssüflər olsun ki, indiyədək heç bir müsbət nəticə əldə olunmayıb. Hətta danışıqlar prosesi hər dəfə ermənilər tərəfindən pozularaq problemin sülh yolu ilə həllindən imtina edilib. Eyni zamanda düşmən ölkənin ordusu tərəfindən daim Azərbaycanın sərhəd yaşayış məntəqələri atəşə tutulur, mülki şəxslər hədəfə alınır. Növbəti belə təxribat iyulun 12-də Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində baş verdi. Ağır artilleriya silahları ilə qəflətən hücuma keçən düşmən qısa müddətdə geri oturdularaq cavab zərbəsi ilə susduruldu. İyulun 13-də isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirildi. Ölkə başçısı, Ali Baş Komandan iclasda düşmənin son təxribatının ordumuz tərəfindən qarşısının layiqincə alındığını bildirmiş, Azərbaycanın heç zaman işğal faktı ilə barışmayacağını bir daha qeyd etmişdir: ***"Bu çirkin və məkrli siyasət Ermənistanı uçuruma aparacaq. Bütün məsuliyyət Ermənistanın rəhbərliyi üzərinə düşür. Azərbaycan öz ərazi bütövlüyünü bundan sonra da qoruyacaq, öz sərhədlərimizi qoruyacaq. Dünən günorta saatlarında və bu gün gecə düşmənə vurulmuş sarsıdıcı zərbələr bir daha onu göstərdi. Həlak olan hərbçilərimizin qisası alındı və onların qanı yerdə qalmayıb və qalmayacaq... Azərbaycan heç vaxt işğal edilmiş torpaqlarının bu vəziyyətdə qalması ilə barışmayacaq, işğalla barışmayacaq və əlindən gələni edəcək ki, öz ərazi bütövlüyünü bərpa etsin".***

*Bu gün ordumuz tərəfindən düşmənin təxribat xarakterli hərəkətlərinə vaxtında və layiqli cavab verilməsi hər birimizdə qürur hissi doğurur. 2016-cı ilin Aprel döyüşlərindən sonra yenidən ordumuzun sarsıdıcı gücünü görən mənfur qonşularımız unutmamalıdırlar ki, xalqımız Ali Baş Komandanın da dediyi kimi, heç zaman işğalla barışmayacaq və əlindən gələni edəcək ki, öz ərazi bütövlüyünü bərpa etsin. Bu tarixi ədalətin bərpasına isə az qalıb.*

**Səbuhi HƏSƏNOV**

# "Naxçıvan mətbuatı: dünən və bu gün"

## *mövzusunda onlayn elmi konfrans*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 1 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan milli mətbuatının 145 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"na əsasən AMEA Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti, Mətbuat Şurası və "Şərq qapısı" qəzetinin birgə təşkilatçılığı ilə "Naxçıvan mətbuatı: dünən və bu gün" mövzusunda onlayn elmi konfrans keçirilib.***



Konfransı giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq milli mətbuatımızın yubileyinin qeyd olunmasının ümummilli lider Heydər Əliyevin 1990-cı ilin 22 iyulunda Naxçıvana gəlməsi, muxtar respublikamız, ümumilikdə ölkəmiz üçün xilas, nicat günü olan, dövlət müstəqilliyimizin əsasının qoyulduğu tarixi günə təsadüf etdiyini vurğulayıb. O, milli mətbuatımızın yaranmasının 145 illiyi ilə əlaqədar ölkə Prezidenti və Ali Məclis Sədri tərəfindən imzalanan sərəncamların əhəmiyyətindən bəhs edib.

"Ümummilli liderimiz Heydər Əliyev və Azərbaycan mətbuatı" mövzusunda çıxış edən akademik İsmayıl Hacıyev bildirib ki, çoxəsrlik tarixə və zəngin ənənələrə malik Azərbaycan milli mətbuatının müstəqillik illərindəki inkişafı, ölkəmizdə söz, fikir, mətbuat azadlığına nail olunması, bilavasitə, dünya şöhrətli siyasətçi Heydər Əliyevin adı ilə bağlıdır. Akademik vurğulayıb ki, ulu öndərin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra ölkədə mətbuat orqanlarının azad fəaliyyəti və inkişafı yolunda süni maneələrin aradan qaldırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, qəzetlərin maddi-texniki təchizatının yaxşılaşdırılması sahəsində də ardıcıl işlər görülüb. Məhz ümummilli liderin uzaqgörənliyi sayəsində ölkə mətbuatında söz, fikir və əqidə azadlığının təmin olunması üçün müvafiq qanunvericilik aktlarında dəyişikliklər aparılıb, Azərbaycan beynəlxalq konvensiya və sazişlərə qoşulub. Təqdirəlayiq haldır ki, bu müdrik siyasət hazırda ölkəmizdə uğurla davam etdirilir, mətbuat dövlət siyasətinin güzgüsünə, cəmiyyətin düzgün istiqamətləndirici qüvvəsinə çevrilib.

Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev "Muxtar respublikada jurnalistika ixtisası üzrə kadr hazırlığının uğurlu təşkili jurnalistikanın inkişafına xidmət edir" mövzusundakı çıxışında qeyd edib ki, 2001-ci ildən universitetdə fəaliyyətə başlayan Jurnalistika ixtisası, 2002-ci ildən fəaliyyət göstərən Jurnalistika və kitabxanaçılıq kafedrası ali təhsilli jurnalist kadrların yetişdirilməsi üçün mühüm əhəmiyyət daşıyır. Həmçinin ali təhsil ocağında bu sahə üzrə tələbələrin peşəkar səviyyədə hazırlanmasında fundamental praktik baza rolu oynayan müxtəlif qurumlar – "Qeyrət" nəşriyyatı, universitet televiziyası, "Nuhçıxan" radiosu, Mətbuat şöbəsi mövcuddur ki, bu qurumlar Azərbaycan ali təhsil sistemində analoqu olmayan Media Mərkəzi şəklində cəmləşib.

Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov "Naxçıvanda medianın inkişafına hərtərəfli dövlət qayğısı göstərilir" mövzusunda çıxış edərək bildirib ki, uğurlu media siyasəti nəticəsində muxtar respublikanın kütləvi informasiya vasitələri fəaliyyətini genişləndirib, mətbuatın inkişafı sahəsində mühüm nailiyyətlər əldə edilib. 2005-ci ildə Naxçıvan Mətbuat Şurasının, 2007-ci ildə isə Televiziya və Radio Şurasının yaradılması bu sahənin inkişafını keyfiyyətcə yeni mərhələyə yüksəldib. Həmçinin ötən il Naxçıvan Mətbuat Şurasının Ümumdünya Mətbuat Şuraları Assosiasiyasına üzv seçilməsi naxçıvanlı jurnalistlərin Naxçıvan mətbuatının dünya mediasının tərkib hissəsi olaraq daha da inkişaf etməsinə yeni imkanlar açıb. Bundan başqa, 2010-cu ildə "Şərq qapısı" qəzeti redaksiyası və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni binanın istifadəyə verilməsi və müasir maddi-texniki təchizat qəzetlərin yüksək poliqrafik keyfiyyətlə nəşrinə şərait yaradıb. Hazırda muxtar respublikada "Şərq qapısı" ilə yanaşı, 8 şəhər və rayon qəzeti, universitet televiziya və radiosu da daxil olmaqla, 3 televiziya, 3 radio və 6 nəşriyyat fəaliyyət göstərir, kütləvi informasiya vasitələrində 400-dən artıq əməkdaş çalışır və onlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar.

"Şərq qapısı" qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mehriban Sultanova "Naxçıvanda mətbuatın inkişafı zəngin ənənələrə və demokratik prinsiplərə əsaslanır" mövzusunda çıxış edərək vurğulayıb ki, bir əsrə yaxın tarixə malik, böyük qəzetçilik məktəbi kimi formalaşan "Şərq qapısı" XX əsrin 90-cı illərinin əvvəllərində müstəqilliyimizin əldə olunmasına və dövlətçiliyimizin möhkəmləndirilməsinə öz layiqli töhfələrini vermişdir. Qəzet Sovetlər Birliyində nəşr olunan ilk müstəqil mətbuat orqanı kimi tarixə düşmüşdür. Qeyd olunub ki, bu gün muxtar respublikamızda nümunəvi mətbuatın fəaliyyəti üçün hərtərəfli şərait yaradılmışdır. Qəzet *www.serqqapisi.az* saytı vasitəsilə dünyanın Naxçıvanla bağlı informasiya tələbatını ödəməkdədir.

Naxçıvanda jurnalistikanın müasir inkişafından danışan baş redaktor vurğulayıb ki, Ali Məclis Sədrinin 2019-cu il 19 sentyabr tarixli Fərmanı ilə Ali Məclis Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması Naxçıvanda medianın inkişafında yeni mərhələnin əsasını qoymuşdur. Bir əsrə yaxın şərəfli inkişaf yolu keçən, muxtar respublika mətbuatı diyarımızın tarixinin salnamələşdirilməsi üçün bundan sonra da var qüvvəsini əsirgəməyəcək.

AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev "Şərqi-Rus" qəzeti və Naxçıvan ədəbi mühiti" mövzusunda çıxış edərək bildirib ki, böyük naşir Məhəmməd ağa Şahtaxtlı 1903-cü il martın 30-da əsrin ilk anadilli mətbuat nümunəsi sayılan "Şərqi- Rus" qəzetinin nəşri ilə Azərbaycanın ictimai fikir və milli mətbuat tarixində mühüm mərhələnin əsasını qoydu. O zaman Azərbaycanda mətbuat sahəsində çalışan olmadığı üçün Məhəmməd ağa Şahtaxtlı bu işdə varlığı ilə bağlı olduğu doğma Naxçıvandakı həmyerlilərinin gücündən daha çox istifadə etməyə çalışırdı. Qəzet öz səhifələrində Naxçıvan hadisələrinə geniş yer verdiyi kimi, ədəbi mühitə də qayğı göstərir, nəzm və nəsr yazanları həvəsləndirirdi.

Sonra məruzələr ətrafında çıxışlar olub. AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev konfransın yekununda mətbuatın inkişafına göstərilən qayğıya görə iştirakçılar adından dövlətimizə minnətdarlığını bildirib.

Qeyd edək ki, onlayn elmi konfransda AMEA Naxçıvan Bölməsinin əməkdaşları, muxtar respublikanın aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri və nümayəndələri, Naxçıvan Dövlət Universitetinin Jurnalistika və kitabxanaçılıq kafedrasının müəllim və tələbələri iştirak ediblər.

**Nail ƏSGƏROV**



*Hələ qədim dövrlərdən Azərbaycanda elə nəsillər, elə qəbilələr olub ki, onlar öz döyüşkənliyi ilə təkcə Qafqazda deyil, Avropada da tanınıblar. Onlar arasında yüksəkrütbəli hərbçilər – generallar olub və mərdliyi, igidliyi ilə Vətənimizin müstəqilliyinə, ərazi bütövlüyünə misilsiz töhfələr veriblər.*

# Hərb tariximizdə xüsusi rolu olan Naxçıvanskilərin rəşadəti gənclərimiz üçün örnəkdir

Tarixən bu millətin dünya hərb tarixində öz dəstxəti, strateji taktikası olan sərkərdələri olub. Bu siyahıya Tomrisi, Cavanşiri, Babəki, Şah İsmayıl Xətaini, Pənahəli xanı, Cavad xanı, Çələbi xanı və digər məşhur sərkərdə və dövlət xadimlərini daxil etmək olar. Bundan başqa, Azərbaycan ərazisində Şərqdə və Avropada da kifayət qədər tanınan nəsil və qəbilələr də olub. Bu sırada Bakıxanovlar, Şıxlinskilər, Çələbilər, Cavanşirlər, Vəkilovlar nəslinin adını çəkmək olar. Onlar Azərbaycana döyüşkən əsgərlər, komandirlər və sərkərdələr bəxş etmiş, Ana torpağın başı üstünü təhlükə alanda birləşib ayağa qalxmış, onun hər qarışı uğrunda canlarından keçmişlər.

Azərbaycan xalqının formalaşmasında, böyük rolu olan qədim türk tayfalarından biri də Kəngərlilərdir. XVIII əsrin II yarısından etibarən Kəngərli hakimləri yüksək titullar daşımış və Azərbaycanın ən güclü xanlıqlarından olan Naxçıvan xanlığını idarə etmişlər. 1828-ci il Türkmənçay sülh müqaviləsinə görə, Naxçıvan xanlığı Rusiyanın himayəsinə keçsə də, Kəngərlilərin ən nüfuzlu nümayəndələri 1840-cı ilədək "Naib" titulu ilə vəzifədə qalmışdır. Çar imperiyası dövründə Kəngərli tayfasına mənsub insanların bir hissəsinə "Naxçıvanski" soyadı verilmiş və onların arasında bir sıra görkəmli ictimai-siyasi, hərbi xadimlər, elm və mədəniyyət nümayəndələri yetişmişdir. Tarixin səhifələrini vərəqlədikcə görürük ki, XVIII əsrin II yarısından XIX əsrin əvvəllərinədək bütün Naxçıvan xanları Kəngərli nəslindən olmuşdur. 1747-ci ildə Nadir şah Əfşar suiqəsd nəticəsində öldürüldükdən sonra Kəngərli tayfa başçısı Heydərqulu xan Kəngərli özünü Naxçıvanın müstəqil xanı elan etmiş və Naxçıvan xanlığı Heydərqulu xan Kəngərlinin hakimiyyəti dövründə sürətli inkişaf yolu keçmişdir. Heydərqulu xan vəfat etdikdən sonra müxtəlif illərdə Naxçıvan xanlığını onun oğlu Hacı Məhəmməd xan, Rəhim xan, Şükürulla xan, qardaşı Əliqulu xan, Vəliqulu xan idarə etmişdir.

Naxçıvan xanlığı müstəqil olduğu 1747-1797-ci illərdə daxili və xarici siyasəti ilə qonşu xanlıqların rəğbətini qazanmış, Heydərqulu xanın, sonralar isə I Kalbalı xanın hakimiyyəti dövründə siyasi diplomatiyası ilə fərqlənmişdir. I Kalbalı xanın, oğlu Ehsan xanın hakimiyyətə gəlişi Naxçıvan xanlığında bir canlanma yaratmış, Naxçıvan torpaqlarını tapdaqlar altında qalmaqdan qorumuşdur. I Kalbalı xan Naxçıvan xanlığını müstəqil idarə etdiyi illərdə mahir bir süvari qoşun sərkərdəsi olmaqla bərabər, çox bacarıqlı bir diplomat olmuş, xanlığa qarşı işğalçılıq siyasəti irəli sürən qüvvələr əleyhinə mühüm addımlar atmışdır. Az bir müddət ərzində çarizmin apardığı müstəmləkəçilik siyasətinə baxmayaraq, Naxçıvan Qafqazın əsas mərkəzlərindən birinə çevrilmiş, xanlığın ərazisi, qoşunu, pul vahidi, özünəməxsus xarici, daxili siyasəti, müstəqil dövlətə məxsus atributları olmuşdur.

Kəngərlilər sərbəst, müstəqil yaşamağı və öz dövlət qurumlarını – Naxçıvan xanlığını müdafiə etməyi yaxşı bacarırdılar. Döyüşkənliyi ilə bütün Qafqazda məşhur olan Kəngərlilər ağa və bəylərin rəhbərliyi ilə xüsusi süvari dəstələri təşkil edib şöhrət qazanmışdılar. Çar Rusiyasında Azərbaycanın uzun illər hərb sənətindən kənarda saxlanmasına baxmayaraq, Kəngərli süvariləri Rusiyanın apardığı döyüşlərdə böyük cəsarət nümunəsinə çevrilmişlər. Rusiya hərbi tarixçisi və yürüş iştirakçısı Platon Zubov yazır: "Onlar haqqında fikir demək üçün gərək o qoşunları döyüş vaxtı müşahidə edəsən. Bunlar elə bil ki, qəzəblənmiş Allahın odu və ildırımıdırlar. Döyüş vaxtı göydən düşmənlərin lap mərkəzinə düşürlər, ölüm və dəhşət səpələyirlər. Elə o vaxtdan mənim gözlərim önündə baş verən müsəlman qoşunlarının möcüzəli igidliklərini sevinclə xatırlayıram".



1829-cu ildən başlayaraq Rusiya hökuməti Kəngərli süvarilərini Şərqi Avropa ölkələrinə hərbi xidmətə də aparmış və onların cəsurluğu həmin dövlətlərin hökmdarlarının – çar hərbi dairələrinin diqqət mərkəzində olmuşdur. İstər xanlıq dövründə, istərsə də Naxçıvan xanlığının Rusiya tərəfindən işğalından sonra da Naxçıvan süvariləri əvvəlki döyüş hünərlərini qoruyub saxlamışlar.

Azərbaycanın hərb tarixinə altı igid general bəxş etmiş Kəngərli nəslinin nümayəndələri şücaətləri ilə ad-san qazanmış, sayı-hesabı olmayan müxtəlif orden və medallarla təltif olunmuşlar. Həmçinin general-mayor Ehsan xanın iki oğlu – general-leytenant İsmayıl xanın, Kalbalı xanın adlarının Moskvanın Kreml sarayının Müqəddəs Georgi zalında mərmər lövhələr üzərinə qızıl hərflərlə həkk olunması da azərbaycanlı hərbçilərin şücaətlərinin yüksək dəyərləndirilməsinin göstəricisidir.

Rusiya və Azərbaycan xalqlarının yaddaşında bu günədək əsl qeyrət, hünər və sədaqət rəmzi kimi qalan generallardan biri də görkəmli Azərbaycan sərkərdəsi Hüseyn xan Naxçıvanskidir. Naxçıvanda doğulan, ilk təhsilini burada alan Hüseyn xan faciəli bir tale yaşamış, ömrünün qalan hissəsini isə qürbətdə Rusiya hərb elminə həsr etmiş çox mahir bir hərbçi olmuşdur. Atası general II Kalbalı xan oğlunu hərbçi kimi görmək istədiyindən Hüseyn xanı



imperatorun himayəsində olan və Rusiyanın ən mötəbər, zadəgan nəsillərinin oğullarının təhsil aldığı Peterburqdakı Paj korpusunda oxumağa göndərmiş, o, həmin məktəbi əla qiymətlərlə bitirdikdən sonra rus ordusunda hərbi xidmətə başlamışdır. Süvari alayındakı 20 illik hərbi xidməti zamanı Hüseyn xan kornetdən ən böyük hərbi rütbəyə, Əlahəzrətin general-adyutantı rütbəsinədək yüksəlmişdir. Rus-yapon savaşında qafqazlılardan təşkil olunmuş 2-ci Dağıstan süvari alayına, müharibədən sonra isə rus ordusunun qocaman və şöhrətli alaylarına Nijeqorodsk draqun və Leyb-qvardiya süvari alaylarına rəhbərlik etmişdir. Birinci Dünya müharibəsi ərəfəsində Hüseyn xan 2-ci süvari diviziyasının komandiri təyin edilmiş, ona general-leytenant rütbəsi verilmişdir. Qafqaz müsəlmanlarından təşkil edilmiş, "Vəhşi diviziya" kimi tanınan diviziya və polyaklardan təşkil olunmuş süvari diviziya ona tabe olmuşdur.

Hüseyn xan Naxçıvanskinin döyüşlərdə göstərdiyi şücaətə görə aldığı orden və medalların sayı-hesabı yoxdur. O, Rusiya imperiyasının 20 mükafatı və 9 xarici ordenlə təltif olunmuşdur. Hüseyn xan Rusiya ordusunun sayca az olan o generallarından idi ki, 1917-ci il inqilabını tanımadı.

Hüseyn xan Kalbalı xan oğlu Naxçıvanski 1919-cu ildə Petroqradda bolşeviklər tərəfindən həbs olunmuş və güman edilir ki, güllələnmişdir, lakin onun dəfn yeri məlum deyil. Amma tarix bu əfsanəvi sərkərdəni unutmadı. Rus və Azərbaycan xalqının yaddaşında bu günədək əsl qeyrət, kişilik, hünər və sədaqət rəmzi kimi qalan Hüseyn xan Naxçıvanskinin şərəfli adı qəlbimizdə daim yaşayır.

Kəngərlilər nəslinin nümayəndələri yalnız hərbi işlə məşğul olmamış, həmçinin onların çox böyük torpaq sahələri və mülkləri olmuşdur. Xanlıqlar dövrünün əsas cəhətlərindən biri də iqamətgahların və onun müvafiq istehkamı kimi saray komplekslərinin yaradılması olmuşdur. Məhz möhtəşəm Xan sarayının 1780-ci ildə Kalbalı xan Kəngərli tərəfindən inşa edilməsi də Kəngərli nəslinin dövlətçilik ənənələrinin bir göstəricisidir. Naxçıvan xanlığı ləğv edildikdən sonra bir sıra məqsədlər üçün istifadə olunan bu sarayda Kəngərli süvarilərinin komandanlığı yerləşdirilib, 1918-1920-ci illərdə Naxçıvan Milli Müdafiə Şurasının qərargahı buraya köçürülüb.

Azərbaycanın milli dövlətçilik tarixində Naxçıvan xanlığının tutduğu xüsusi mövqeyi nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 23 oktyabr tarixli Sərəncamı ilə "Xan Sarayı" Dövlət-Tarix Memarlıq Muzeyi kimi fəaliyyətə başlayıb. Muzeyin daimi ekspozisiyası formalaşdırılarkən Azərbaycanın hərb tarixində xüsusi xidmətləri olan Kəngərli sülaləsinin görkəmli nümayəndələrinə həsr olunmuş guşələr yaradılmışdır. Bu nəslin adlı-sanlı hərbçiləri, elm və mədəniyyət xadimləri, qadın şairələri ilə yanaşı, general Hüseyn xan Naxçıvanskiyə də aid maraqlı guşələr yaradılmış, onun həyatı və hərbi fəaliyyəti ilə bağlı materiallar nümayiş etdirilərək muzeyə gələn tamaşaçılara təbliğ edilməkdədir. Muzeydə görkəmli sərkərdəyə aid arxiv materialları və sənədli məlumatlar da nümayiş olunur.

Hüseyn xan Naxçıvanskinin hərbi fəaliyyəti ilə bağlı nadir tarixi fotolar, rəssam Rəfael Qədimovun yağlı boya ilə çəkdiyi Hüseyn xan Naxçıvanskinin portreti və digər qiymətli eksponatlar ekspozisiyada öz əksini tapmışdır.



Həmçinin görkəmli sərkərdənin ailə üzvlərinə aid materiallar da muzeydə nümayiş olunur. Bu materiallardan Hüseyn xanın atası II Kalbalı xan Naxçıvanskinin, bacısı Zərrintac xanımın, oğlu Nikolay Naxçıvanskinin fotoları, eyni zamanda müəllifi Müsəllim Həsənov olan 117 səhifədən ibarət "Qərib məzarlar" adlı kitab-albomu da qeyd etmək olar. Kitab-albomda Hüseyn xanın qızı Tatyana Hüseynova Martinovanın qəbrinin təmirdən sonrakı fotosu və onun haqqında qısa məlumat verilmişdir.

Naxçıvanski generalları sülaləsinin nümayəndəsi Hüseyn xan Naxçıvanskiyə həsr olunmuş "Əlahəzrətin general-adyutantı" kitabı da guşədə yer alıb. Əsərdə Hüseyn xan Naxçıvanskinin 34 illik hərbi fəaliyyəti ilə sıravi hərbçidən general-adyutant səviyyəsinə çatmasının səbəbləri və mahiyyəti bütün fəlsəfəsi ilə açıqlanmışdır.

Ekspozisiyada Hüseyn xanın İmperator Rusiyasının ordusunda 15 illiyinin tamam olması münasibətilə 3-cü dərəcəli "Müqəddəs Anna" ordeni ilə mükafatlandırılması, İran şahının təqdimatı ilə ulduz və almazlarla bəzədilmiş İranın 2-ci dərəcəli "Şir və Günəş" ordenini qəbul etmək və yaxasında daşımaq ixtiyarının verilməsi ilə bağlı maraqlı məlumatlar da yer almışdır.

Rusiya imperiyasında böyük nüfuz sahibi olmuş görkəmli azərbaycanlı sərkərdə Hüseyn xan Naxçıvanskinin 34 illik hərbi fəaliyyəti haqqında çəkilmiş "Qayıdış" sənədli filmi də muzeydə nümayiş olunan eksponatlar arasındadır. Film Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə lentə alınmışdır. Filmin çəkilişləri Naxçıvanda, Bakıda, Sankt-Peterburqda aparılmış və arxiv materiallarından geniş istifadə olunmuşdur. Film Azərbaycan və rus xalqları arasındakı mədəni, tarixi bağların keçmişi və bu günü baxımından çox əhəmiyyətlidir.

Xatirəsi bu gün də Rusiyada və Azərbaycanda əziz tutulan Hüseyn xan Naxçıvanski ona görə dəyərli və qiymətlidir ki, o, böyük sərkərdə olmaqla yanaşı, eyni zamanda cəsur insan və sədaqətli əsgər idi. Belə insanlar isə mütləq xatirələrdə yaşamalı, adları daim xatırlanmalıdır: dünənimiz, bu günümüz və gələcəyimiz üçün...

*General Hüseyn xan Naxçıvanski irsinin yaşadılmasında, gənclərdə hərbi- vətənpərvərlik tərbiyəsinin formalaşmasında muzey öz fəaliyyətini uğurla davam etdirir. Hərb tariximizin fəxri olan Hüseyn Naxçıvanskinin həyatı, igidliyi gəncliyimiz üçün əsl nümunədir.*

**Zülfiyyə ƏLİYEVA**
***"Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin baş fond mühafizi-elmi işçi***

## Naxçıvanda icma rəhbərlərinə və din xadimlərinə pulsuz geyimlər təqdim olunub



*Naxçıvan şəhərindəki "Sarvanlar" məscidində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə dini icma rəhbərlərinə və din xadimlərinə pulsuz geyimlər verilib.*

238 dini icma rəhbərinə və din xadiminə geyimlərin təqdim olunduğu tədbirdə Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev dövlət-din siyasətindən danışıb. Bildirib ki, muxtar respublikada 212 məscid və 18 dini icma fəaliyyət göstərir. Bu gün muxtar respublikada dini yas mərasimlərində din xadimlərinin geyim formasında olmasına və həmin tədbirlərin yüksək səviyyədə aparılmasına ciddi nəzarət edilir.

Naxçıvan Muxtar Respublikası Qazısı yanında Şuranın sədri Sahib Məmmədov din xadimlərinə göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib. O, din xadimlərinə dövlət vəsaiti hesabına geyimlərin verilməsini muxtar respublika dövlətin dinə və dindarlara göstərdiyi diqqət və qayğının bariz nümunəsi kimi qiymətləndirib.

**Xəbərlər şöbəsi**

## Növbəti onlayn dəyirmi masa keçirilib

*Dünən Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzinin və Culfa Rayon Mədəniyyət Şöbəsinin təşkilatçılığı ilə "Milli dəyərlərimiz milli varlığımızdır" mövzusunda onlayn dəyirmi masa keçirilib.*

"Milli adətlərimizi təbliğ etmək varlığımızın qarantıdır" mövzusunda çıxış edən mərkəzin direktoru Səyyar Məmmədov bildirib ki, milli dəyərlər xalqların kimliyinin formalaşmasında müstəsna rola malikdir. Tarixi təcrübə göstərir ki, öz soykökündən, tarixindən, milli dəyərlərindən uzaq düşən millətlər və dövlətlər müəyyən zaman kəsiyində yox olmaq, tarix səhnəsindən silinmək təhlükəsi ilə üzləşiblər. Bu mənada, milli adətlərimizi yaşatmaq millət olaraq gələcək varlığımızın vacib şərtlərindəndir.

Sonra Culfa Rayon Mədəniyyət Sarayının direktoru Aqil Adilzadə, Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzin metodisti Elçin Əsədov, Culfa Rayon Kırna kənd mədəniyyət evinin direktoru Sona Əsgərova müxtəlif mövzularda çıxış ediblər.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət musiqi təhsili müəssisələrinə işə qəbulu üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 15 iyul-17 avqust 2020-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet portalında *(www.dqmk.nmr.az)* "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər test imtahanında iştirak üçün 70 manat məbləği "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın "Naxçıvanbank" ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya təqdim edilməlidir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya gəlməklə müraciət edə bilərlər.

Maraqlananlar Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya *dqmk@nakhchivan.az* elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

| Vəzifə kodu | İxtisas | Vakant yerlərin sayı | Vakant saatların miqdarı | Qeyd |
|---|---|---|---|---|
| **1. Naxçıvan Musiqi Kolleci üzrə:** | | | | |
| 680113 | Bədii yaradıcılıq işi | 2 | 1000 | |
| 680117 | Xalq çalğı alətləri (kamança) | 3 | 1500 | |
| 680119 | Xalq çalğı alətləri (qanun) | 1 | 750 | |
| 680118 | Xalq çalğı alətləri (nağara) | 1 | 500 | |
| 680130 | İnstrumental ifaçılıq (skripka) | 1 | 500 | |
| 680135 | Konsertmeyster (fortepiano) | 1 | 500 | |
| **Cəmi:** | | **9 yer** | | |
| **2. Naxçıvan Şəhər Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **2.1. Naxçıvan Şəhər Məmməd Məmmədov adına 1 nömrəli Uşaq Musiqi Məktəbi** | | | | |
| 681132 | Kamança | 1 | 8 | |
| 681146 | Tar | 1 | 16 | |
| **2.2. Naxçıvan Şəhər Səfər Rəcəbov adına 3 nömrəli Uşaq Musiqi Məktəbi** | | | | |
| 681315 | Fortepiano | 1 | 8 | |
| 681338 | Musiqi ədəbiyyatı | 1 | 4 | |
| 681340 | Nağara | 1 | 6 | |
| 681346 | Tar | 1 | 8 | |
| **2.3. Naxçıvan Şəhər 4 nömrəli Uşaq Musiqi Məktəbi** | | | | |
| 681436 | Qanun | 1 | 20 | |
| 681438 | Musiqi ədəbiyyatı | 1 | 12 | |
| 681444 | Skripka | 1 | 8 | |
| **2.4. Naxçıvan Şəhər 5 nömrəli Uşaq Musiqi Məktəbi** | | | | |
| 681640 | Nağara | 1 | 12 | |
| **2.5. Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbi** | | | | |
| 681214 | Fleyta | 1 | 8 | |
| 681225 | Xoreoqrafiya | 4 | 76 | |
| 681234 | Klarnet | 1 | 6 | |
| 681236 | Qanun | 1 | 4 | |
| 681244 | Skripka | 1 | 10 | |
| 681248 | Violonçel | 1 | 10 | |
| **2.6. Naxçıvan Şəhər Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbi** | | | | |
| 681537 | Qarmon | 1 | 4 | |
| 681538 | Musiqi ədəbiyyatı | 1 | 4 | |
| **Cəmi:** | | **21 yer** | | |
| **3. Şərur Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **3.1. Şərur Şəhər Bəhruz Kəngərli adına Uşaq İncəsənət Məktəbi** | | | | |
| 682112 | Balaban | 1 | 12 | |
| 682125 | Xoreoqrafiya | 2 | 38 | |
| 682132 | Kamança | 4 | 96 | |
| 682134 | Klarnet | 1 | 4 | |
| 682136 | Qanun | 1 | 16 | |
| 682140 | Nağara | 2 | 34 | |
| 682143 | Saz | 2 | 28 | |
| 682146 | Tar | 3 | 64 | |
| **3.2. Aralıq Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 682423 | Xor | 1 | 13 | |
| 682432 | Kamança | 1 | 24 | |
| 682435 | Konsertmeyster (fortepiano) | 1 | 16 | |
| 682437 | Qarmon | 1 | 24 | |
| 682440 | Nağara | 2 | 26 | |
| 682446 | Tar | 1 | 12 | |
| **3.3. Çərçiboğan Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 682212 | Balaban | 1 | 4 | |
| 682232 | Kamança | 1 | 20 | |
| 682236 | Qanun | 1 | 16 | |
| 682240 | Nağara | 2 | 38 | |
| 682243 | Saz | 1 | 10 | |
| 682246 | Tar | 1 | 8 | |
| **3.4. Ələkli Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 682332 | Kamança | 2 | 36 | |
| 682335 | Konsertmeyster (fortepiano) | 1 | 15 | |
| 682337 | Qarmon | 1 | 15 | |
| 682343 | Saz | 1 | 18 | |
| 682346 | Tar | 1 | 24 | |
| **3.5. Şəhriyar Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 682623 | Xor | 1 | 13 | |
| 682632 | Kamança | 1 | 6 | |
| 682635 | Konsertmeyster (fortepiano) | 2 | 33 | |
| 682637 | Qarmon | 1 | 12 | |
| 682646 | Tar | 2 | 28 | |
| **3.6. Yuxarı Daşarx Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 682512 | Balaban | 3 | 52 | |
| 682515 | Fortepiano | 1 | 24 | |
| 682532 | Kamança | 1 | 16 | |
| 682534 | Klarnet | 1 | 12 | |
| 682537 | Qarmon | 1 | 24 | |
| 682540 | Nağara | 1 | 24 | |
| 682543 | Saz | 1 | 8 | |
| 682546 | Tar | 4 | 80 | |
| **Cəmi:** | | **56 yer** | | |
| **4. Babək Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **4.1. Babək Rayon Uşaq Musiqi Məktəbi** | | | | |
| 683115 | Fortepiano | 1 | 6 | |
| 683122 | Xanəndəlik | 1 | 10 | |
| 683140 | Nağara | 1 | 8 | |
| 683143 | Saz | 1 | 10 | |
| **4.2. Cəhri Qəsəbə Uşaq Musiqi Məktəbi** | | | | |
| 683322 | Xanəndəlik | 1 | 6 | |
| 683335 | Konsertmeyster (fortepiano) | 1 | 20 | |
| 683340 | Nağara | 1 | 6 | |
| 683343 | Saz | 1 | 8 | |
| **4.3. Nehrəm Qəsəbə Uşaq Musiqi Məktəbi** | | | | |
| 683215 | Fortepiano | 1 | 24 | |
| 683222 | Xanəndəlik | 1 | 4 | |
| 683235 | Konsertmeyster (fortepiano) | 1 | 4 | |
| 683240 | Nağara | 1 | 20 | |
| **4.4. Şıxmahmud Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 683432 | Kamança | 1 | 4 | |
| 683437 | Qarmon | 1 | 15 | |
| 683440 | Nağara | 1 | 18 | |
| 683443 | Saz | 1 | 20 | |
| 683446 | Tar | 1 | 12 | |
| **4.5. Zeynəddin Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 683532 | Kamança | 1 | 16 | |
| 683535 | Konsertmeyster (fortepiano) | 1 | 24 | |
| 683536 | Qanun | 1 | 12 | |
| 683540 | Nağara | 1 | 12 | |
| **Cəmi:** | | **21 yer** | | |
| **5. Ordubad Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **5.1. Ordubad Şəhər Uşaq Musiqi Məktəbi** | | | | |
| 684115 | Fortepiano | 1 | 6 | |
| 684135 | Konsertmeyster (fortepiano) | 4 | 88 | |
| 684137 | Qarmon | 1 | 23 | |
| 684144 | Skripka | 1 | 8 | |
| 684146 | Tar | 1 | 12 | |
| 684149 | Vokal | 1 | 8 | |
| **5.2. Vənənd Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 684215 | Fortepiano | 1 | 20 | |
| 684232 | Kamança | 3 | 52 | |
| 684234 | Klarnet | 1 | 16 | |
| 684235 | Konsertmeyster (fortepiano) | 3 | 51 | |
| 684237 | Qarmon | 1 | 12 | |
| 684240 | Nağara | 1 | 16 | |
| 684244 | Skripka | 1 | 4 | |
| 684246 | Tar | 2 | 46 | |
| **Cəmi:** | | **22 yer** | | |
| **6. Culfa Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **6.1. Culfa Şəhər Uşaq Musiqi Məktəbi** | | | | |
| 685112 | Balaban | 1 | 12 | |
| 685123 | Xor | 1 | 16 | |
| 685137 | Qarmon | 3 | 52 | |
| 685138 | Musiqi ədəbiyyatı | 1 | 14 | |
| 685144 | Skripka | 1 | 12 | |
| 685149 | Vokal | 1 | 4 | |
| **6.2. Bənəniyar Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 685215 | Fortepiano | 2 | 46 | |
| 685232 | Kamança | 3 | 52 | |
| 685235 | Konsertmeyster (fortepiano) | 2 | 48 | |
| 685238 | Musiqi ədəbiyyatı | 1 | 10 | |
| 685240 | Nağara | 2 | 32 | |
| 685243 | Saz | 1 | 6 | |
| 685244 | Skripka | 1 | 22 | |
| 685246 | Tar | 1 | 16 | |
| **Cəmi:** | | **21 yer** | | |
| **7. Kəngərli Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **7.1. Qıvraq Qəsəbə Uşaq Musiqi Məktəbi** | | | | |
| 686132 | Kamança | 1 | 8 | |
| 686137 | Qarmon | 1 | 6 | |
| 686140 | Nağara | 1 | 6 | |
| 686144 | Skripka | 1 | 18 | |
| 686146 | Tar | 1 | 12 | |
| **7.2. Çalxanqala Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 686212 | Balaban | 1 | 4 | |
| 686232 | Kamança | 1 | 12 | |
| 686235 | Konsertmeyster (fortepiano) | 4 | 78 | |
| 686237 | Qarmon | 2 | 45 | |
| 686240 | Nağara | 2 | 32 | |
| **Cəmi:** | | **15 yer** | | |
| **8. Şahbuz Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **8.1. Şahbuz Şəhər Uşaq Musiqi Məktəbi** | | | | |
| 687115 | Fortepiano | 1 | 12 | |
| 687140 | Nağara | 1 | 8 | |
| 687143 | Saz | 1 | 8 | |
| 687144 | Skripka | 1 | 4 | |
| 687146 | Tar | 1 | 8 | |
| **8.2. Kolanı Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 687212 | Balaban | 1 | 16 | |
| 687223 | Xor | 1 | 16 | |
| 687232 | Kamança | 1 | 8 | |
| 687235 | Konsertmeyster (fortepiano) | 1 | 24 | |
| 687238 | Musiqi ədəbiyyatı | 1 | 10 | |
| 687244 | Skripka | 1 | 14 | |
| 687246 | Tar | 1 | 8 | |
| **Cəmi:** | | **12 yer** | | |
| **9. Sədərək Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **9.1. Sədərək Rayon Uşaq Musiqi Məktəbi** | | | | |
| 688112 | Balaban | 2 | 32 | |
| 688115 | Fortepiano | 1 | 18 | |
| 688132 | Kamança | 3 | 64 | |
| 688134 | Klarnet | 1 | 22 | |
| 688135 | Konsertmeyster (fortepiano) | 4 | 91 | |
| 688137 | Qarmon | 1 | 21 | |
| 688140 | Nağara | 1 | 6 | |
| 688143 | Saz | 1 | 20 | |
| 688146 | Tar | 1 | 16 | |
| 688149 | Vokal | 1 | 14 | |
| **Cəmi:** | | **16 yer** | | |
| **Yekun:** | | **193 yer** | | |

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 525